**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# SƏRİŞTƏLİ MÜƏLLİM KADRLARININ HAZIRLIĞI TƏHSİLİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNİN MÜHÜM AMİLİ KİMİ

İxtisas: 5804.01- ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi ixtisası

Elm sahəsi: Pedaqogika

**İddiaçı:** **Yaqut Mustafa qızı Əzimzadə**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

# AVTOREFERATI

**Bakı – 2021**

Dissertasiya işi Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun "Təhsil nəzəriyyəsi" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: p. e. d., professor
**Rüfət Lətif Hüseynzadə**

Rəsmi opponentlər: p.e.d., professor
**Ləzifə Nağı qızı Qasımova**
p.ü.e.d., dosent
**Kamal Həsən oğlu Camalov**
p.ü.f.d.
**Ramiz Cəlal oğlu Əliyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: t. ü. e. d., professor
________________ **Cəfər Məmməd oğlu Cəfərov**

Dissertasiya şurasının elmi katibi: p. ü.f. d., dosent
________________ **Mələk Əlislam qızı Zamanova**

Elmi seminarın sədri: p. e. d., professor
________________ **Fərrux Abbas oğlu Rüstəmov**

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənilmə səviyyəsi**. Mükəmməl təhsil sisteminə malik olmaq dövlətin gələcəyi, onun qüdrəti, iqtisadiyyatının yüksəlişi və əbədi müstəqilliyi üçün başlıca şərt hesab edilir. Azərbaycan Respublikasında həyata keçirilən təhsil islahatlarının əsas məqsədi təlim və tərbiyə prosesinin səmərəliliyini yüksəltmək, mənəvi, əxlaqi keyfiyyətlərə malik, insani dəyərləri gündəlik həyat də fəaliyyətində ehtiva edən, milli və bəşəri dəyərlərə yiyələnən, yaradıcı və tənqidi düşünməyi bacaran, fəal həyat mövqeyi olan şəxsiyyətlər yetişdirməkdir. Bu ümdə məqsəddən irəli gələn vəzifələrin həyata keçirməsi ilk növbədə səriştəli müəllim kadrlarının hazırlığı ilə şərtlənir. Belə ki, pedaqoji prosesdə nə qədər mükəmməl texniki vasitələr olsa da, yeni pedaqoji texnologiyalar, innovasiyalar tətbiq edilsə də, müəllimin praktik işini, onun fədakar əməyini, hərtərəfli, humanist və didaktik fəaliyyətini əvəz edə bilməz. Bu baxımdan ölkəmizin mütərəqqi dünya birliklərinə uğurla inteqrasiya ediyi müasir dinamik inkişaf mərhələsində səriştəli müəllim kadrlarının hazırlanması xüsusi ictimai və elmmi-pedaqoji əhəmiyyət kəsb edir.

Bu, bir tərəfdən ölkədə maddi kapitalın insan kapitalına çevrilməsi, insanların məqsədyönlü, davamlı və fasiləsiz olaraq hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi formalaşdırılmasının həyata keçirilməsi, insan resurslarının inkişafı və ondan səmərəli istifadə edilməsi, mövcud təhsil infrastrukturunun yeniləşdirilməsi, müasir təlim-tərbiyə innovasiyaları və texnologiyalarının tətbiqi, təhsil sistemində mütərəqqi idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, təlimin məzmununun (kurikulumların) təhsilalanların əqli inkişaf səviyyəsi və "yaxın inkişaf zonası" (L.S. Bıqotski) nəzərə alınmaqla təkmilləşdirilməsi, digər tərəfdən isə müəllimin yüksək mənəvi, əxlaqi keyfiyyətlərə malik olması, öz üzərində daim çalışması, yüksək peşə və ixtisas hazırlığına malik olması, səriştəli müəllim kadrlarının hazırlığı dövrün zəruri tələbatından irəli gələn və ictimai əhəmiyyət kəsb edən obyektiv amillərlə şərtlənir.

Onu da nəzərə almaq lazımdır ki, təhsilin məzmunun təkmilləşdirilməsi dövlətin maddi-texniki bazasının inkişafı ilə

şərtlənir. Bunların arasında sıx qarşılıqlı əlaqə və asılılıq mövcuddur. Belə ki, məhsuldar qüvvələr və istehasl münasibətlərinin inkişafı təhsil infrastrukturunun genişləndirilməsi və möhkəmləndirilməsinə zəmin yaradır. Məqsədyönlü təlim, tərbiyə və təhsil nəticəsində formalaşdırılan nəsillər isə dövlətin və cəmiyyətin tərəqqisinə xidmət edir.

Məhz buna görə də Azərbaycan Respublikası özünün müstəqil inkişaf mərhələlərində üstqurumun vacib tərkib hissələrindən biri kimi təhsilin inkişafı və onun fasiləsiz təkmilləşdirilməsinə xüsusi əhəmiyyət vermiş, cəmiyyətin tərəqqisi və dövlətin maddi-texniki bazasının inkişafına müvafiq olaraq Təhsil haqqında Əsasnamə, Qanunlar (1992, 1994, 2009) və digər vacib sənədlər qəbul edilmiş, 2013-cü il oktyabrın 24-də isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təsdiq edilmişdir. Beləliklə, aparılan məqsədyönlü və ardıcıl dövlət siyasəti nəticəsində təhsil sahəsində islahatların vahid konsepsiyası, aydın strategiyası və konkret dövlət proqramı hazırlanmış və beləliklə, ölkəmizdə səriştəli müəllim kadrlarının hazırlığı üçün münbit şərait, əsaslı zəmin yaradılmışdır.

Bu mühüm dövlət sənədində də səriştəli müəllim kadrlarının hazırlığı mox böyük ictimai əhəmiyyət kəsb edən amil kimi önə çəkilir və strategiyanın birinci istiqamətində göstərilir.

Beləliklə, tədqiqata cəlb etdiyimiz elmi-pedaqoji problemin aktuallığı məhz yuxarıda qeyd etdiyimiz müddəalarla şərtlənir.

**Tədqiqatın obyekti** səriştəli müəllimin nəzəri hazırlığı və praktiki fəaliyyətidir.

**Tədqiqatın predmetini** isə təhsilin keyfiyyətinin yüksəldilməsi məqsədilə səriştəli müəllim kadrlarının hazırlığı prosesi təşkil edir.

**Tədqiqatın məqsədi** təhsilin keyfiyyətinin yüksəldilməsində səriştəli müəllim kadrlarının hazırlığının səmərəli yollarını, səriştəliliyin strukturunu və müəllimin pedaqoji fəaliyyətinin müxtəlif aspektlərini müəyyənləşdirməkdən ibarətdir.

**Tədqiqatın** obyekti, predmeti və məqsədinə müvafiq olaraq onun aşağıdakı **vəzifələri** müəyyənləşdirilmişdir:

- dövlət sənədlərində səriştəli müəllim hazırlığı problemlərini

təhlil etmək;

- mövcud ədəbiyyatda səriştəlilik problemini və müəllimlik peşəsində səriştəliliyin pedaqoji əsaslarını araşdırmaq;
- səriştəliliyin məqsədi, mahiyyəti və səciyyəvi xüsusiyyətlərini müəyyən etmək;
- səriştəli müəllim peşəsinin pedaqoji vəzifələri, funksiyaları və səciyyəvi xüsusiyyətlərini işləmək;
- səriştəli müəllimin pedaqoji qabiliyyətlərini araşdırmaq;
- şəxsiyyətyönümlü pedaqoji prosesdə səriştəliliyin yerini müəyyənləşdirmək;
- səriştəli müəllim kadrlarının hazırlığının nəzəri əsaslarını araşdırmaq;
- müəllim kadrlarının hazırlığında səriştəyə əsaslanan pedaqoji problemlərin həlli yollarını göstərmək;
- səriştəli müəllim kadrlarının hazırlığında müasir pedaqoji texnologiyalardan istifadənin yollarını müəyyənləşdirmək.

**Tədqiqatın metodoloji əsasını** fakt və hadisələrə dialektik baxış, klassik pedaqoqların, ictimai xadimlər və görkəmli şəxsiyyətlərin müəllim peşəsi haqqında dəyərli fikirləri təşkil edir.

Araşdırma zamanı aşağıdakı **tədqiqat metodlarından** istifadə edilmişdir:

1. Təhlil və tərkib. Nəzəri mənbələrin, o cümlədən səriştəli pedaqoji kadr hazırlığı sahəsindəki problemlərin təhlil və tərkibə cəlb edilməsi.
2. Sosioloji metodlar (anket sorgusu, müsahibə, yazılı sorğular).
3. Diaqnostika (səriştəli müəllim kadrlarının formalaşdırılmasının kəmiyyət və keyfiyyət göstəriciləri).
4. Modelləşdirmə: ali məktəb sənədlərinin öyrənilməsi.
5. Riyazi statistika.

Araşdırmalar zamanı alınan nəticələr, toplanan materiallar, məlumatlar sistemləşdirilmiş, qruplaşdırılmış və dissertasiyanın müvafiq bölmələrində öz əksini tapmışdır. Bu əsasda ümumiləşdirmələr aparılmış, öyrənilən pedaqoji hadisə və proseslər arasında kəmiyyət və keyfiyyət asılılıqları müəyyənləşdirilmişdir. Tətbiq edilən metodlar göstəricilərin qiymətləndirilməsi, nəzəri

ümumiləşdirmələrin aparılması və etibarlı nəticələrin alınmasına imkan vermişdir.

6. Pedaqoji müşahidə. Tədqiqatla bağlı 2014-2017-ci illərdə ADPU və ADU-da mühazirə və seminar məşğələləri müşahidə olunmuş, təhlillər aparılmış, iş təcrübəsi ümumiləşdirilərək dissertasiyada əks etdirilmişdir.

7. Pedaqoji müsahibə. Pedaqoji müsahibə adı çəkilən ali təhsil müəssisələrinin tələbələri, pedaqoji kollektivləri, professor-müəllim heyəti, kafedra müdirləri ilə keçirilmişdir.

8. Pedaqoji eksperiment. 2018-2019-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetində və Azərbaycan Dillər Universitetində üç mərhələdə (müəyyənedici, öyrədici və yoxlayıcı) eksperiment aparılmışdır. Bu universitetlərdə səriştəli müəllim kadrlarının hazırlığı problemləri öyrənilmiş, Bakının Binəqədi rayonunun 102, Nərimanov rayonunun 45 və 82 saylı məktəblərində səriştəli müəllimlərin fəaliyyəti öyrənilmiş; tədris prosesi, müəllim-şagird münasibətləri, təlim və tərbiyə fəaliyyəti, müəllimin pedaqoji ustalığı, səriştəliliyi, müxtəlif siniflərdə dərs prosesi müşahidə edilmiş, anket sorğuları keçirilmiş, müsahidələr aparılmışdır.

Dissertasiyada "səriştəli müəllim", "səriştəli müəllimin sahələri" və "səriştəlilik" kimi anlayışların fərqli xüsusiyyətləri təhlil edilir, səriştəli müəllimin keyfiyyətləri, pedaqoji qabiliyyət və bacarıqları aydınlaşdırılır və göstərilir ki, səriştəli müəllim ilk növbədə yüksək pedaqoji qabiliyyətlərə malikdir, ixtisas biliyini yüksək səviyyədə bilir və onu mükəmməl tədris edir, yaradıcılıqla fəaliyyət göstərir, şagirdlər, valideynlər və həmkarları ilə düzgün münasibətlər qurur, müasir pedaqoji texnologiyalar, İKT və kompüter texnologiyasından səmərəli istifadə etməyi bacarır.

**Müdafiəyə çıxarılan başlıca müddəalar:**

- səriştəli müəllim kadrlarının hazırlığı müasir dövrdə dövlətin və cəmiyyətin rəqabətə qabil, çevik, yaradıcı və tənqidi düşüncə tərzinə, milli və bəşəri dəyərlərə malik, Azərbaycanı dünya birliklərində uğurla təmsil etməyi bacaran gənclərə tələbatı ilə şərtlənir;

- ictimai həyatın bütün sahələrində informasiya və

kommunikasiya texnologiyalarının geniş tətbiqi, ictimai şüura məlum olan informasiyaların inqilabi yolla artması hər şeyi öyrədən, çox öyrədən deyil, şagirdlərinə öyrənməyin yolunu öyrətməyi bacaran səriştəli müəllim kadrlarının hazırlığını tələb edir;

- səriştəli müəllim kadrlarının hazırlığı məhsuldaq qüvvələr və istehsal münasibətlərinin mövcud tələbatından irəli gəlir və bu, ali təhsil müəssisələri qarşısında mühüm bir vəzifə kimi qoyulur, bu sahədə onların məsuliyyətini artırır.

**Tədqiqatın elmi yeniliyi** səriştəli müəllim kadrları hazırlığının təhsilin keyfiyyətinin yüksəldilməsinin mühüm amili kimi araşdırılması, səriştəli müəllimin ümumi və fərqli xüsusiyyətlərinin təhlil edilməsi, təhsilin keyfiyyətinin yüksəldilməsində səriştəli müəllim kadrları hazırlığının səmərəli ustalğı, səriştəliliyin strukturu və müəllimin pedaqoji fəaliyyətinin müxtəlif aspektlərinin müəyyənləşdirilməsindən ibarətdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Səriştəli müəllimin hazırlığı və onun pedaqoji fəaliyyəti müəllim hazırlığının metodologiyasını, pedaqoji nəzəriyyəni zənginləşdirir, bu sahədə yeni tədqiqatların aparılmasına imkan və yollar açır, bütövlükdə pedaqogika elminin "Müəllim hazırlığı", "Müəllimin pedaqoji fəaliyyəti" bölmələri üçün faydalı material verir.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqat materiallarından müəllimlər, tələbələr, magistrantlar elmi işlərində, dərslik və dərs vəsaitlərinin hazırlanmasında istifadə edə bilərlər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.**

Tədqiqatın başlıca müddəaları və alınan nəticələr haqqında beynəlxalq və respublika elmi konfranslarında məruzə edilmiş, onun lakonik məzmunu Azərbaycan Respublikası Prezidenti yanında AAK-ın tövsiyə etdiyi jurnallarda nəşr olunan 11 məqalədə (o cümlədən Rusiya və Almaniyada) öz əksini tapmışdır.

Dissertasiya **Azərbaycan Respublikasının Təhsil İnstitutunda** yerinə yetirilmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, doqquz paraqrafı özündə birləşdirən üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

Giriş 8 səhifə, 14156 işarə, I fəsil 27 səhifə, 51598 işarə, II fəsil 43 səhifə, 80161 işarə, III fəsil 46 səhifə, 81959 işarə, nəticə 4 səhifə, 7387 işarədən, istifadə edilmiş ədəbiyyat siyahısı 10 səhifədən, ümumilikdə dissertasiya işi 264244 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiqatın aktuallığı əsaslandırılır, obyekti və predmeti, məqsədi, vəzifələri, metodoloji əsası, tədqiqat metodları, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə çıxarılan müddəalar müəyyənləşdirirlir, alınan nəticələr haqqında yığcam məlumat verilir.

Dissertasiyanın 2 paraqrafdan ibarət olan ***birinci fəsli*** **"Səriştəli müəllim kadrları hazırlığının dövlət sənədlərində və pedaqoji ədəbiyyatda qoyuluşu"** adlanır. "*Dövlət sənədlərində səriştəli müəllim hazırlığı problemləri*" adlı birinci paraqrafda qeyd olunur ki, ulu öndər Heydər Əliyevin strateji əhəmiyyət kəsb edən amil kimi təhsilə, onun dövrün tələblərinə müvafiq təkmilləşdirilməsinə, müəllim kadrlarının hazrlanmasına, müəllim şəxsiyyətinə xüsusi diqqət və qayğı göstərmişdir. Ali təhsil müəssisələrinin professor-müəllim heyətinin əməyinin təşkilini daha da təkmilləşdirmək məqsədilə 1994-cü il fevralın 24-də *"Professor-müəllim heyətinin tədris işi üçün vaxt normasının müəyyənləşdirilməsi, elmi-tədqiqat, elmi-metodik və digər işlərin növləri barədə"* sənəd imzalmışdır. Bu sənəd ali məktəblərdə tədris edən professor-müəllim heyətinin vəziyyətinin yaxşılaşdırlmasına, onların səriştəli müəllim kimi fəaliyyətinə xeyli imkan və şərait yaratmışdır.

2009-cu ildə "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minmişdir. Qanunda deyilir: "Bu Qanun vətəndaşların Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuş təhsil hüququnun təmin edilməsi sahəsində dövlət siyasətinin əsas prinsiplərini və təhsil fəaliyyətinin tənzimlənməsinin ümumi şərtlərini müəyyən edir".

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 16 may 2014-cü

il tarixli əmri ilə "Müəllimlərin etik davranış qaydaları" təsdiq edilmişdir. “...Qaydalar”da deyilir: "Müəllimlərin etik davranış qaydaları təhsilin bütün səviyyələrində peşə fəaliyyəti zamanı təhsilverənlərin ümumi davranışını və təhsil prosesi iştirakçıları ilə qarşılıqlı münasibətlərini tənzimləyən normalar məcmusundan ibarətdir". Hər bir müəllimin etik qaydalara riayət etməsi vacibdir

Paraqrafda nəzərdən keçirilən problemlərlə bağlı belə bir nəticəyə gəlinir ki, dövlət sənədlərində səriştəli müəllim hazırlığı amili özünəməxsus yer tutur və həmin sənədlər səriştəli müəllim kadrlarının hazırlanması sahəsində ali təhsil müəssisələrinə böyük kömək göstərir.

Birinci fəslin ikinci paraqrafı *“Pedaqoji ədəbiyyatda səriştəlilik probleminin qoyuluşu”* adlanır. Dissertasiyada N. Gəncəvi, T. Tusi, M. Füzuli, M.T. Sidqi, S.M. Qənizadə, H. Cavid, F. Ağazadə, F. Köçərli, S.M. Əfəndiyev, N. Nərimanov, Ü. Hacıbəyov, M.M. Mehdizadə, M.Ə. Muradxanov, H.M. Əhmədov, Ə.Ə. Əlizadə, Ə.Ə. Ağayev, N.M. Kazımov, M.C. Mərdanov, B.A. Əhmədov, Y.R. Talıbov, Ə.Ş. Həşimov, A.O. Mehrabov, F.A. Rüstəmov, A.N. Abbasov, F.B. Sadıqov, H.Ə. Əlizadə, L.N. Qasımova, H.H. Əhmədov, R.L. Hüseynzadə və başqalarının, Türkiyə pedaqoqlarından Yəhya Akyüz, Avni Deniz, İsmayıl Doğan; rus pedaqoqlarından A.D. Bendar, V.A. Kan-Kalik, V.S. Qrexnev, N.N. Nikitina, İ.E. Sinitsanın müəllim peşəsi, müəllimin vəzifələri, ustalığı, nəzəri-praktiki və metodiki hazırlığa yiyələnməsinin zəruriliyinə dair fikirləri diqqət mərkəzinə gətirilir.

Dissertasiyanın ikinci fəslində N.M.Kazımovun "Pedaqoji ustalığın əsasları"; A.O.Mehrabov, A.N.Abbasov və b.-nın "Müəllim hazırlığına yeni yanaşmalar", R.H.Məmmədzadənin "Müəllimin peşə etikası" monoqrafiyası, S.M.Quliyev və M.A.İsmixanovun "Müəllimlik ixtisasına giriş" vəsaiti; L.N.Qasımova və H.Ə.Əlizadənin "Ali təhsilin qloballaşma yolu"; V.C.Xəlilovun "Müəllimin estetik mədəniyyəıti", M.İ.İlyasovun "Müəllimin pedaqoji ustalığı", "Müəllimin səriştəliliyi” adlı dərs vəsaitləri; dosentlər A. Nəzərov və R. Məmmədovun "Pedaqoji usatlıq", H. Əliyevin "Müəllim hazırlığı prosesində peşə keyfiyyətinin

formalaşdırılması yolları" əsərləri təhlilə cəlb edilmiş və onların məzmunu elmi-pedaqoji baxımdan təhlil və şərh edilmişdir.

Dissertasiyanın **“Müəllimlik peşəsində səriştəliliyin pedaqoji əsasları”** adlanan **II fəsli** 4 paraqrafı əhatə edir. Birinci paraqrafda (*“Müəllimlik peşəsində səriştəliliyin məqsədi, mahiyyəti və səciyyəvi xüsusiyyətləri”)* müəllimlik peşəsi, müəllimin səriştəliliyi, onun məqsədi, mahiyyəti və bu peşəyə xas olan səciyyəvi xüsusiyyətlər araşdırılır. Aydınlıq gətirilir ki, "səriştə" termini beynəlxalq aləmdə - “kompetensiya” (latın sözü- *competens)* kimi işlədilir. Bunun qarşılığı "uyğun", "peşəyə yararlı", “məqbul sayılma" mənalarını verir. Azərbaycan dilində işlənən "səriştə" sözü fars dilindən alınmadır. Fars dilindəki "səreştən" "yaratmaq" məsdəri ilə qohumdur, isimdən əmələ gələn feildir; qrammatik əsası "səriş" sözüdür". Dilimizdə səriştəlilik və səriştə anlayışları vardır ki, onlar müxtəlif məzmun kəsb edir. Səriştəlilik müəllimin öz funksiyanı tələb olunan, yüksək səviyyədə yerinə yetirməsi, onun hörmətli və nüfuzlu olmasıdır. Səriştələr isə müəllimin müxtəlif pedaqoji qabiliyyətlərə, müsbət keyfiyyətlərə malik olmasıdır.

Müəllimin peşə səriştəliliyinə, həmçinin onun yüksək pedaqoji fəaliyyəti, şagirdlərlə, həmkarları ilə, valideynlərlə düzgün pedaqoji ünsiyyət və münasibət qurması daxildir. Bütün bunlar isə öz növbəsində təlim-tərbiyənin keyfiyyətinin yüksəlməsinə, təhsilin səmərəsinin yüksəlməsinə müsbət təsir göstərir. Pedaqoji səriştəliliyi təkmilləşdirmək - fərdi pedaqoji yaradıcılığı inkişaf etdirmək, öz üzərində çalışmaq, pedaqoji innovasiyalara yiyələnmək, peşə ustalığını yüksəltmək, peşə mərifətinə, ünsiyyətdə evfemizmin tələblərinə riayət etmək, yetişdirmələri ilə işgüzar münasibətləri təkmilləşdirmək və mütəhərrik, dəyişən, mürəkkəbləşən pedaqoji mühitə uyğunlaşa bilməkdir. Müəllimin peşə səviyyəsinin yüksəlməsi bilavasitə cəmiyyətin ictimai-iqtisadi və mənəvi inkişafı iləşərtlənir.

Səriştəli müəllimin fəaliyyətinin 6 növünü ayırd etmək olar:

1. Səriştəli müəllimin peşə fəaliyyəti onun ixtisasına dair dərin biliyə malik olması və praktik fəaliyyətdə onu tətbiq etmək bacarığıdır.

2. Refleksiv səriştəlilik - müəllim kadrlarının peşəkarlıq səviyyəsinin yüksəldilməsinin mühüm şərtidir. Refleksiv səriştəlilik müəllimin peşə keyfiyyətinin bir göstəricisidir ki, bunun sayəsində yaradıcı iş, səriştəli fəaliyyət , səmərəlilik və məhsuldarlıq meydana gəlir. Refleksiya latın sözü olub *"reflexio"*dan əmələ gəlmədir və "geriyə baxmaq", "əks etdirmək" mənasını verir. Bu görülmüş işin nəticəsini görmək, onu hiss etmək, dəyərləndirmək və qiymətləndirməkdir. Refleksiya - özünə yönələn idrak prosesi, görülən işin təhlili, əqlin və daxili aləmin vəziyyətini müşahidə etmək və şəxsi mövcudluğa əsaslanan tədqiqatçılıq aktıdır. Refleksiyanın layihələşdirici, təşkilatçılıq, kommunikativlik, yaradıcılıq və korrektə etmək funksiyaları vardır.

3. Sosial peşə səriştəliliyi müəllimin kollektivlə həmrəyliyi, şagirdlərlə "pedaqoji əməkdaşlığı", onlarla düzgün ünsiyyət və münasibəti, ziddiyyətləri aradan qaldırma bacarığı, ictimaiyyət arasında hörmət və nüfuza malik olması, pedaqoji mədəniyyət və mərifətidir.

4. Müəllimin şəxsi peşə səriştəliliyi onun özünü ifadə etmə, özünü inkişafetdirmə və özünü təkmilləşdirmə bacarığıdır. Şəxsi peşə səriştəliliyi müəllimin öz işini planlaşdırmağı, layihələşdirməyi bacarması, müstəqil qərarlar qəbul edə bilməsi deməkdir.

5. Fərdi peşə səriştəliliyi müəllimin özünüidarəetmə, özünənəzarət bacarığına malik olmasıdır.

6. Səriştəlilik ömür boyu, fasiləsiz davam etməli, peşə şərəfi qorunmalı, müəllimlik peşəsi uca tutulmalıdır.

Səriştəli müəllimin mühüm keyfiyyətlərindən biri də onun fəal idarəçi olmasıdır. O, yalnız sinfin deyilr, həmçinin məktəbin və cəmiyyətin idarə edilməsində fəal iştirak edir. Müəllimin fəal idarəçiliyi onun peşə ustalığı və səriştəliliyinin bir göstəricisidir. Səriştəli müəllim yalnız fənnini yaxşı tədris edən müəllim deyil, həm də sinfin, kollektivin yaxşı idarəçisidir. O, sinfi lazımi qaydada təşkil edir, şagirdlər arasında düzgün vəzifə bölgüsü aparır, şagirdlərin fərdi qabiliyyətlərinə müvafiq tapşırıqlar verir, hər yerdə təşkilatçılıq, fəallıq nümunəsi göstərir.

Müəllimin peşə səriştəsinin formalaşdırılmasının aşağıda

sadalanan mərhələlərini ayırd edirlər:

1. Müəllimin öz fəaliyyətini müntəzəm təhlil etməsi, davranış və fəaliyyətinə nəzarət etməsi, uğurlu və uğursuz səbəbləri ayrıca ayırd etməsi.

2. Müəllimin özünün inkişafını, özünütəkmilləşdirməyi planlaşdırması (məqsəd, vəzifələr, həlli yolları).

3. Müəllimin özünənəzarət, özünütəhlil və özünükorrektə etmə bacarığı.

4. Müəllimin öz üzərində müstəqil çalışmaq, yaradıcı fəaliyyətini inkişaf etdirmək, tədqiqatçılıq bacarığını inkişaf etdirmək bacarığı.

5. Müəllim zehni əməyin elmi təşkili prinsiplərini yaxşı bilməsi, əməyini düzgün planlaşdırma bacarığı.

Səriştəli müəllimin pedaqoji bacarıqlarını əsasən dörd qrupa ayırmaq olar:

1. Şagird kollektivinin yeni biliklər qazanmasını nəzərə alaraq, onların pedaqoji-psixoloji səviyyələrinə uyğun konkret pedaqoji vəzifələri müəyyənləşdirmək bacarığı;

2. Öz fəaliyyətini planlaşdırmaq və layihələşdirmək bacarığı, təlim-tərbiyə prosesində düzgün forma və metodları seçə bilmək qabiliyyətinə malik olmaq bacarığı.

3. Şagirdləri fəallaşdırmaq, birgə fəaliyyət göstərmək, inkişaf etdirmək üçün əlverişli şərait və imkanları yarada bilmək bacarığı.

4. Şəxsi pedaqoji fəaliyyətinə nəzər yetirməyi, nəticələri düzgün qiymətləndirməyi, pedaqoji prosesi və öz fəaliyyətini düzgün təhlil edə bilmək bacarığı.

Səriştəli müəllimin nəzəri hazırlığı, onun analitik, proqnostik, planlaşdırıcı, layihələşdirici, habelə refleksiv bacarıqlarının olmasını tələb edir. Səriştəli müəllimin praktik hazırlığı onun təşkilatçılıq, səfərbər etmə, informasiya vermə, inkişaf etdirmə, maarifləndirmə, perseptiv, kommunikativ, didaktik, akademik bacarıq və qabiliyyətlərinin olmasını tələb edir.

Səriştəli müəllim hazırlığına kompleks yanaşılmalıdır. Müasir dövrdə səriştəli müəllim hazırlığının ən vacib amillərindən biri onun kompüter biliklərinə yiyələnməsidir. Səriştəli müəllim qloballaşan

dünyamızda dünyanın sürətlə dəyişilməsini, durmadan artan informasiya axınını, vaxt məhdudiyyətinin artmasını, cəmiyyətdə baş verən ictimai prosesləri, ekoloji fəlakətləri və s. bilməlidir

II fəslin *“Səriştəli müəllim peşəsinin pedaqoji vəzifələri, funksiyaları səciyyəvi xüsusiyyətləri”* adlanan ikinci paraqrafında səriştəli müəllimin pedaqoji vəzifələri, funksiyaları, onun səciyyəvi xüsusiyyətləri araşdırılır. Dünyaca məşhur və müdrik insanların müəllimin şəxsi səciyyəvi keyfiyyətləri barədə dediyi sözlərə istinad edilir.

Bu gün müəllim xüsusi hazırlıq kursu keçmiş, pedaqoji fəaliyyətlə peşəkarcasına məşğul olan bir insandır. O, öz peşə borcunu keyfiyyətlə icra etməsinə görə cəmiyyət və dövlət qarşısında məsuliyyət daşıyır.

II fəslin “*Səriştəli müəllimin pedaqoji qabiliyyətləri*” adlanan üçüncü paraqrafında aşağıdakı problemlərə diqqət yetirilir:

Hər bir peşə müəyyən prinsiplər, paradiqmalar, qaydalar üzərində qurulur. Bu baxımdan səriştəli müəllimlik peşəsi ilk növbədə aşağıdakı tələblərə cavab verməlidir: 1. Peşəyə olan sevgi. 2. Müəllimin ixtisas biliyi. 3. Müəllimin pedaqoji və psixoloji biliklərə malik olması. 4. Müəllimin öyrətmə metodikası. 5. Müəllim-şagird münasibətlərinin düzgün qurulması.

Bu fəslin dördüncü paraqrafında (*“Şəxsiyyətyönümlü pedaqoji prosesdə müəllimin səriştəliliyi”)* qeyd olunur ki, səriştəyə əsaslanan şəxsiyyətyönümlü təhsil məzmunun yaradılması hazırda xüsusi aktuallıq kəcb edir. Təhsil işçiləri nə qədər praktik bacarıqlar qazansalar da, elmi araşdırmaların real nəticələri üzərində fəaliyyətin səriştəliliyə nail olmağına üstünlük verilir. Müasir müəllim XXI əsrin xüsusiyyətlərini (iqtisadi və texnoloji dəyişmələr, ictimai münasibətlər, yaşayış, iş və ünsiyyət tərzi) pedaqoji fəaliyyətində həmişə önə çəkməyi bacarmalıdır. Belə ki, şagirdlərin zəruri bilik, bacarıq və vərdişlərinin müstəqil qazanılmasında XXI əsrin xüsusiyyətlərinə müvafiqlik təmin olunmalıdır.

Müəllim pedaqoji fəaliyyətində təlimin təşkilinə verilən əsas gigiyenik və fizioloji tələbləri də nəzərə almalı, hər yaş dövründə orqanizmdə həmin insana xas olan fizioloji və psixoloji dəyişiklikləri

bilməlidir. Müəllim müsbət nəticə əldə etmək istəyirsə, tədris fəaliyyəti zamanı orqanizmin iş qabiliyyətinin qanunauyğun olaraq dəyişildiyini nəzərdən qaçırmamalıdır. Belə ki, əvvəlcə iş qabiliyyəti artır, sonra isə yüksək səviyyəyə qalxaraq sabitləşir və tədricən enir.

Səriştəli müəllim tədrisdə ənənəvi təlim sistemindən imtina etmədən onu fəal və interaktiv təlim üsulları ilə əlaqələndirməklə və müəyyən dəyişikliklər etməklə ona tədqiqat xarakteri verməlidir.

Bu cəhətdən ənənəvi və interaktiv təlimin xüsusiyyətlərini belə müqayisə etmək olar.

**Cədvəl 1**

**Ənənəvi və interaktiv təlimin xüsusiyyətləri**

| Dərslərin xüsusiyyətləri | |
|---|---|
| Ənənəvi | İnteraktiv |
| Əsas diqqət bilik və bacarıqların mənimsənilməsinə yönəlir | Hər şeydən əvvəl öyrənənin şəxsiyyətinin formalaşdırılmasına önəm verilir |
| Müəllimin əsas funksiyası öyrənənlərə məlumat çatdırmaq və onun mənimsənilməsinə təminat vermək | Müəllimin bələdçiliyi ilə idrak fəaliyyətinin əlaqələndirilməsi, istiqamətverici və yönəldici kimi şərtlənməsi |
| Hər iki tərəfin münasibətində avtoritar üslubun üstünlüyü | Müəllim-tələbə münasibətində əməkdaşlıq, bərabərhüquqluluq |
| Dərs tədris fənni çərçivəsində məhdudlaşır | Fənlərarası inteqrasiya ilə dərsin təşkili |
| Təhsilin məzmunu başlıca olaraq inkişafetdirici və tərbiyəedici amil kimi götürülür | Təhsilin məzmunu ilə yanaşı öyrənənlərin şəxsiyyət kimi formalaşdırılmasında təlimin üsul və formaları əhəmiyyət kəsb edir |
| Dərs həmişə eyni qaydada keçir və maraq kəsb etmir. | İnteraktiv dərslər qeyri-ənənəvi olub, daim tələbələrin marağını təmin edir. |

Qarşılıqlı fəaliyyətə əsaslanan interaktiv təlim metodları barədə çin filosofu Konfusinin müdrik fikrini ehkam hesab etmək olar:

“Desən unudaram, göstərsən yadımda qalar, etsən öyrənərəm".

Təlim prosesində fəal və interaktiv təlim metodlarının həyata keçirilməsi müəllimin ustalığını yüksəltməyə şərait yaratmaqla şagirdləri fəallaşdırır, onların qabiliyyətləri və müstəqil düşünmə bacarıqlarını inkişaf etdirir.

Dissertasiyanın **“Səriştəli müəllim kadrları hazırlığının yolları”** adlanan III fəsli 3 paraqrafdan ibarətdir.

Fəslin birinci paraqrafı *“Pedaqoji təmayüllü ali təhsil müəssisələrində səriştəli müəllim hazırlığına verilən tələblər”* adlanır.

Pedaqoji təmayüllü ali təhsil müəssisələrində müəllim kadrlarının hazırlığı təhsil sisteminin əsasını təşkil edir və təhsilin keyfiyyətinin yüksəldilməsində əsas amil sayılır. Belə ki, tədris prosesində nə qədər yaxşı texniki vasitələr, yeni pedaqoji texnologiyalar, elektron lövhələr, elektron dərs vəsaitləri olsa da belə, səriştəli müəllimin fəaliyyətinin yerini, onun bilavasitə pedaqoji əməyinin əvəzini verə bilməz.

Respublikamızda pedaqoji kadr hazırlığı ilə əsasən pedaqoji və humanitar kolleclər, pedaqoji universitetlər (ADPU, ADU), Naxçıvan Müəllimlər İnstitutu və digər pedaqojiyönümlü universitet, fakültə və şöbələr fəaliyyət göstərir. Pedaqoji kadr hazırlığında ali məktəblərimiz, əvvəllərdə olduğu kimi, müstəqillik dövründə də uğurlar qazanmaqdadır.

Müvafiq tədqiqatlarda ali pedaqoji təhsil müəssisələrində pedaqogika fənninin interaktiv üsullarla tədrisi tələbələrin peşə hazırlığının yüksəldilməsi vasitəsi kimi araşdırılmış, bu sahədə məqsəd və vəzifələr, prinsip, qanunauyğunluqlar və metodlar üzrə elmi nəticələr müəyyənləşdirilməmişdir. Bununla yanaşı, müəllim hazırlığının şərtləndiyi müxtəlif cəhətlərlə bağlı tədqiqatlar aparılmış, elmi konfranslar keçirilmiş, aktual problemlər şərh edilmişdir.

Səriştəli müəllim kadrlarının hazırlanmasında ali təhsilin magistratura pilləsində "Ali məktəb pedaqogikası" fənninin tədrisi də böyük əhəmiyyət kəsb edir.

Müşahidələr göstərir ki, ali pedaqoji məktəb tələbələrinin bir çoxu müəllimlik peşəsinin səriştələrinə tam yiyələnməmiş, pedaqoji peşənin tələblərinə müvafiq müstəqil və yaradıcı fəaliyyəti lazımı

səviyyədə qura bilməımişdir. Halbuki səriştəli müəllimin formalaşdırılmasında mühüm amilllərdən biri pedaqoji qanunauyğunluqları mənimsəməkdir.

Tədqiqatın gedişində ümumtəhsil müəssisələrində yeni kurikulumların tətbiqi nəzərə alınmaqla səriştəli ibtidai sinif müəllimi hazırlığı üzrə tətbiq olunan proqramların məzmunu ilə bağlı ADPU-nun pedaqoji fakültəsinin IV kurs tələbələri ilə belə bir eksperiment keçirdik. Lakin əvvəlcə tələbələrlə anket sorğusu keçirdik. Anket sorğusu aşağıdakı sualları əhatə edirdi:

1. Seçdiyiniz ixtisasla bağlı tədris edilən fənlərin məzmunu və ona ayrılan saatların miqdarı Sizi qane edirmi?

2. Fənlərin tədrisi metodikası ümumtəhsil məktəblərində səriştəli müəllim kimi fəaliyyət göstərmənizə şərait yaradırmı?

3. Ümumtəhsil məktəblərində kurikulum islahatına nə vaxtdan başlanıb?

4. Təhsilin inkişafı üzrə Dövlət Strategiyasında səriştəli müəllim hazırlığı əsasən hansı strateji istiqamətdə qoyulmuşdur və digər strateji istiqamətlər hansılardır?

5. Ənənəvi təlimin fəal təlimdən fərqli xüsusiyyətləri hansılardır?

6. Pedaqoji qabiliyyətlər dedikdə, nə başa düşürsünüz?

7. Müəllim nüfuzu necə əldə edilir?

8. Səriştəli müəllimin səciyyəvi xüsusiyyətləri hansılardır?

9. Mühazirə və seminar məşğələləri Sizi qane edirmi?

10. Fənlərin tədrisndə İKT dən istifadə edilirmi? Əgər edilmirsə, səbəbi nədir?

ADPU-nun pedaqoji fakültəsinin IV kurs tələbələrinin cavabları çox maraqlı oldu. Cavablar müfəssəl dissertasiyanın müvafiq paraqrafında öz əksini tapmışdır.

Pedaqoji araşdırma və müşahidələrimizə əsasən səriştəli müəllim kadrlarının hazırlığında, gələcək müəllim kadrlarının hazırlığında, fikrimizsə, aşağıda göstərilən problemlər nəzərə alınmalıdır:

1. Gələcək səriştəli müəllim ilk növbədə ixtisas biliyinə mükəmməl yiyələnməlidir. O, ixtisasının dərin bilicisi və tədqiqatçısı

olmalıdır.

2. Gələcək səriştəli müəllim ixtisasını dərindən öyrəndiyi kimi, yetişdirmələrini öyrətmə qabiliyyətinə də malik olmalıdır.

3. Gələcək səriştəli müəllim öyrətmə qabiliyyətinə malik olduğu kimi , həm də şagirdlərə öyrənməyi öyrətməyi bacarmalıdır. Yəni, şagirdlər müstəqil olaraq bilik qazanmağı, öyrənməyi öyrənməlidirlər.

4. Gələcək səriştəli müəllim şagirdlərə öyrətdiyi bilik, bacarıq və təcrübənin həyati əhəmiyyətini izah etməyi bacarmalı və şagirdlər qazandığı gilikləri həyatda tətbiq etməyi bacarmalıdırlar.

5. Gələcək səriştəli müəllim öz əxlaq və davranışı ilə şagirdlərə, başqa insanlara nümunə olmalıdır. O, bir əxlaq, mənəviyyat etalonu olmalıdır. Şagirdlərdə də yüksək əxalqi keyfiyyətlər formalaşdırmağa daim diqqət yetirməlidir. Şagirdlər, həmçinin qazandıqları bilik, bacarıq və təcrübənin onların şəxsi mənəvi keyfiyyətlərinin bir göstəricisi olduğuna da inanmalıdırlar.

Bu göstərilən pedaqoji problemlərin nəzərə alınması gələcək səriştəli müəllim hazırlığının nüvəsini təşkil edir. Gələcək ilkin müəllim hazırlığında müəllimin səriştəlilik səviyyəsinin öyrənilməsində aşağıdakı amillər nəzərə alınmalıdır:

1. Öyrənənlər tərəfindən sosial mədəni təcrübənin mənmsənilməsi mexanizminin fəallaşdırılması nəticəsində yeni bacarıqların, qabiliyyətlərin formalaşdırılmasına imkan verən baza səriştəlilyi. Bura təşkilatçılıq və kommunikativlik qabiliyyətləri, fikri əməliyyatlara yiyələnmə mexanizminə malik olma, məsələləri təhlil və tərkib etmə, induktiv və deduktiv metodlara sahib olma, müəllim şagird və valideynlərlə düzgün ünsiyyət və münasibət qurma, əməkdaşlıq etmə, hadisələrə sərbəst münasibət bildirmə, müstəqil qərarlar çıxarma bacarıqları aiddir. Gələcək səriştəli müəllim şəxsi inkişafı, özünü təkmilləşdirməyi təmin edən üsullara yiyələnməli, öz fəaliyyətini təhlil etməyi, ümumiləşdirmələr aparmağı, nəticələr çıxarmağı bacarmalıdır.

2. Gələcək səriştəli müəllim tədris etdiyi fənnin məzmununu dərindən bilməklə yanaşı, onun kadr hazırlığında yeri, əhəmiyyətini yaxşı dərk etməlidir.

Bu deyilənlərdən belə nəticəyə gəlmək olar ki, gələcək müəllimin səriştəlilyi ali məktəb auditoriyasından başlayaraq bütün görüləcək işlər, fəaliyyət sahələri yüksək yaradıcı fəaliyyət tələb edir. Son illərdə təhsil prosesində yeni pedaqoji texnologiyalardan istifadə, İKT-nin təhsilə gətirilməsi, "Ağıllı lövhələr"dən istifadə təhsilin modernləşməsinə istiqamət aldığı kimi, səriştəli müəllim kadrlarının hazırlığına da müsbət təsir göstərmişdir.

Müşahidə və araşdırmalar nəticəsində məlum olmuşdur ki, səriştəli pedaqoji kadr hazırlığında təhsil alanın və təhsil verənin şəxsi təhsil nəticəsi, əsasən, aşağıdakı amillərlə bağlıdır.

1. Koqnitivlik. Bu öyrənən insanın informasiyanı, məlumatı, biliyi dərketmə, öyrənmə qabiliyyəti, intellektual hazırlığıdır. Səriştəli müəllim üçün koqnitiv qabiliyyətlərə malik olma - diqqətlilik, müşahidəçilik, yaradıcılıq, tənqidi təfəkkür, hiss etmə, təşkil etmə, özünü səfərbər etmə, iardəlilik, təfəkkür əməliyyatları və s. səciyyəvi cəhətlərdir.

2. Kreativlik. Bu öyrənən insanın aəqlinin çevikliyi, düşüncə qabiliyyəti, təxəyyülü, fantaziyasıdır. Səriştəli müəllimin kreativcəsinə - məsələyə yaradıcı yanaşması, fakt və hadisələrə qeyri standart, orijinal yanaşmasıdır.

3. Təşkilatçılıq. Səriştəli müəllimin vacib keyfiyyətidir. Müəllim hazırlığında gələcək müəllimin təşkilatçılıq qabiliyyətinə yiyələnməsi mühüm şərt hesab edilir. Gələcək müəllim həm özünün, həm də kollektivin fəaliyyətini təşkil etməyi, kollektivin məqsəd və vəzifələrini həll etməyi bacarmalıdır.

Müəllim hazırlığında səriştəlililiyin təməli yuxarıda göstərilən amillərin nəzərə alınması ilə sıx bağlıdır.

Bu gün müəllimin mənəvi siması, səriştəsi hər dövrdə olduğundan daha böyük əhəmiyyət kəsb edir, yəni dövlət quruculuğu bir çox cəhətdən yeni məktəb quruculuğundan, yeni səriştəli müəllim kadrlarının hazırlığından başlayır. Elə bir müəllim ki, cəmiyyəti daha işıqlı, daha xoşbəxt günlərə apara bilən nəsillər yetişdirib, tərbiyə edə bilir. Bu cəhətdən hər bir peşənin özünəməxsus prinsipləri olduğu kimi səriştəli müəllim peşəsinin də özünəməxsus prinsipləri vardır. Hər bir səriştəli müəllim öz pedaqoji fəaliyyətində həmin prinsiplərə

əsaslanmalı və əldə rəhbər tutmalıdır.

*Vətənpərvərlik prinsipi* – bu, səriştəli müəllimin pedaqoji fəaliyyətinin ən başlıca prinsipi hesab olunur. O, bütün pedaqoji fəaliyyətini, əməyini Vətənin qüdrətlənməsi və inkişafına sərf etməlidir.

Səriştəli müəllim peşəsinin mühüm bir *prinsipi peşə fədakarlığıdır***.** Müəllim öz peşəsi yolunda canını, qanını qoymalı, yetirmələrinin səadəti naminə fədakar olmağı bacarmalıdır. O, oxumağa, öyrənməyə sərfedilən vaxta heç vaxt heyfslənməməli, buna qənimət kimi baxmalıdr. Səriştəli müəllimin fədakarlığı onun daim yenilik həvəsində olması, fasiləsiz çalışmasında, yaradıcı fəaliyyətində mühüm yer tutur. Müəllimlər ilk növbədə uşaqlara münasibətində həmrəy olmalı, onlara vahid tələbkarlıqla yanaşmalıdırlar.

*Həmrəyliк prinsipi* tələb edir кi, səriştəli müəllim pedaqoji kolleкtivdə səmimi və xoşrəftar olsun. O, kollektivdə yaranan qruplaşmaya, intriqaya, fərdçiliyə qarşı barışmaz olmalıdır.

Həmrəylik və kollektivçiliyin yaranması üçün kollektivdə münbit mənəvi mühit olmalıdır. Belə olan halda kollektivdə həmrəylik və kollektivçilik yaranır, tənqid və özünütənqid də müəllimlər tərəfindən ağrılı qarşılanmaz və tənqidi qəbul edənlər nöqsanlarını aradan qaldırmaq üçün özünütərbiyə ilə məşğul olarlar.

*Demokratizm prinsipi* səriştəli müəllimin ən mühüm keyfiyyəti olmalıdır. Demokratiya onun daxilində, əməlində olmalıdır. Demokratiyanın əsasını şəxsiyyətin azadlıq hüququ, insanın şəxsiyyətinə hörmət təşkil edir ki, səriştəli müəllim də yetişdirmələrinin azadlığını, hüquqlarını, bərabərliklərini təmin etməlidir. Uşaqlara söz, fikir azadlığı verməlidir. Demokratizm prinsipinə riayət edilməsində səriştəli müəllimin əlində rəhbər hüquqi, pedaqoji sənədlər olmalı və ona əsaslanmalıdır. Bura - "Beynəlxalq Uşaq Hüquqları Konvensiyası", Azərbaycan Respublikasının Konstitusiaysı (Əsas Qanun), Azərbaycan Respublikasının təhsil haqqında Qanunu, Təhsil Strategiyası və digər hüquqi sənədlər daxildir.

*Pedaqoji nikbinlik prinsipi* səriştəli müəllim peşəsinin ayrılmaz tərkib hissəsidir. Bu prinsip tələb edir ki, müəllim öz şagirdlərinə

yüksək nəzərlərlə, onun gələcəyinə böyük ümidlə baxsın. Nikbinlik insanın daxili aləmini ifadə edən bir keyfiyyətdir ki, bu insanın xeyirxahlığını başqası haqqında yüksək və yaxşı fikirdə olmasını, gələcəyə müsbət fikirlərlə yanaşmasını göstərir.

*Şəxsiyyətyönümlülük prinsipi* səriştəli müəllim kadralarını hazırlığında mühüm əhəmiyyət kəsb edir. Şəxsiyyətyönümlülük prinsipi o deməkdir ki, həm müəllim kadrlarının hazırlığında bu məsələyə diqqət yetirilməli, həm də səriştəli müəllim öz pedaqoji fəaliyyətində təhsil alanların bir şəxsiyyət kimi formalaşmasına ilk növbədə əhəmiyyət verməlidir. Bu da yetişən nəslin təhsil və tərbiyəsində elmi cəhətcə əsaslandırılmış prinsip olan *cəmiyyətin, kollektivin və şəxsiyyətin maraqlarının vəhdəti və qarşılıqlı əlaqəsi prinsipinin* mahiyyətini açır. Bu istiqamətdə səriştəli müəllim yüksək humanist və demokratik keyfiyyətlərə sahib olmalı, hər yerdə tolerantlıq göstərməlidir.

*Nəticə yönümlük prinsipi* tələb edir ki, səriştəli müəllimin fəaliyyəti müəyyən bir nəticə ilə yekunlaşsın. Səriştəli müəllim konkret nəticələr əldə etməyə nail olmalı və yetişdirmələrində də nəticə yönümlülük istiqaməti yaratmalıdır. Göstərilən pedaqoji prinsiplər bir biri ilə sıx bağlıdır və səriştəli müəllim kadrlarının hazırlığında bu prinsiplər nəzərə alınmalıdır.

Fəslin ikinci paraqrafı "*Səriştəli müəllim kadrlarının hazırlığında müasir pedaqoji texnologiyalardan istifadə*" adlanır. Bu paraqrafda göstərilir ki, qabaqcıl pedaqoji texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılması üçün beş strateji istiqamətdə genişmiqyaslı tədbirlərin keçirilməsi "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda nəzərdə tutulmuşdur. Həmin beş strateji istiqamət dünya standartlarına uyğun təhsil sisteminin yaradılması ilə bərabər, dünya standartlarına uyğun səriştəli müəllim kadrlarının hazırlığını tələb edir. Müasir səriştəli müəllim təfəkkürə əsaslanan pedaqoji texnologiyalardan biri olan konstruktiv təlimin tətbiqi imkanlarından geniş istifadə imkanlarına malik olmalıdır. Bu gün yaradıcı öyrənmə texnologiyası, tənqidi təfəkkür təhsildə müstəqil, fərdi yanaşmanı üstün tutur. Pedaqoji texnologiyaların başlıca vəzifəsi təhsildə müstəqil öyrənməni təmin

etmək üçün istifadə olunan metod və üsulların səmərəli tətbiqini reallaşdırmaq və onu həyata keçirməkdir. Pedaqoji prosesdə müəllim pedaqoji prosesi inkişafetdirici, düşündürücü, fəallaşdırıcı istiqamətdə qurmalıdır. Səriştəli müəllim kadrlarının hazırlığında yeni pedaqoji texnologiyaların əhəmiyyəti haqqında ADPU-nun pedaqoji fakültəsinin tələbələri ilə eksperiment keçirdik. Kontrol qruplarda məşğələlər bəzən ənənəvi bəzən də intearktiv qaydada keçilmişdir. Eksperiment qruplarda isə məşğələlər yeni pedaqoji texnologiayalar

**Cədvəl 2**

**Tələbələrinin fəal və interaktiv metodlardan istifadənin əhəmiyyətinə olan maraqlarının artma göstəriciləri**

| Suallar | ADPU | | | |
|---|---|---|---|---|
| | Kontrol qrup 33 tələbə | | Eksperiment qrup 33 tələbə | |
| | nəfər | faiz | nəfər | faiz |
| Səriştəli müəllim kadrlarının hazırlanmasında yeni pedaqoji texnologiyalardan istifadənin peşə hazırlığında əhəmiyyətini necə qiymətləndirirsiniz? | 5 | 15% | 8 | 24% |
| Fəal və interaktiv təlim metodları ilə tədrisin təşkili tələbənin gələcək səriştəli müəllim kimi yetişməsinə necə təsir göstərir? | 5 | 15% | 7 | 21% |
| Pedaqoji fənlərin yeni pedaqoji texnologiyalara əsaslanaraq tədrisini əhəmiyyətli sayırsınızmı? | 6 | 18% | 7 | 21% |
| Pedaqoji fənlərin fəal və interaktiv metodlarla tədrisi sizi qane edirmi? | 8 | 24% | 7 | 21% |
| Səriştəli müəllim kadrlarının hazırlığında yeni pedaqoji texnologiyalardan istifadəyə dair metodik vəsaitlər sizi qane edirmi? | 9 | 27% | 13 | 39% |

əsasında həyata keçirilmişdir. Eksperimentdən sonra eksperiment və kontrol qrup tələbələrinin fəal və interaktiv metodlardan istifadəni əhəmiyyətinə olan maraqlarının nə dərəcədə artdığını öyrənmək məqsədilə eksperimentin bir hissəsi olaraq anket sorğusu keçirdik. Sorğunun nəticəsi cədvəl 2-də əks etdirilmişdir.

Cədvəldəki göstəricilərdən aydın olur ki, eksperimental qrupların göstəriciləri kontrol qrupların göstəricilərindən yüksəkdir. Deməli, səriştəli müəllim kadrlarının hazırlığında yeni pedaqoji texnologiyalardan istifadəyə geniş yer verilməlidir.

Hazırda respublikamızda bütün sahələrdə mütəxəssislərin informasiya və kommunikasiya texnologiyaları (İKT) ilə işləmək və onlardan düzgün istifadə etmək bacarığına çox böyük önəm verilir. İKT haqqında biliklərə yiyələnməyin ən yaxşı yolu orta məktəbdən başlayır.

Tədqiqat bir daha təsdiq etdi ki, səriştəli müəllim kadrlarının hazırlığı üzrə aparılmış sistemli, məqsədyönlü, planauyğun və fasiləsiz iş nəticəsində təhsilin keyfiyyətinin yüksəldilməsi təmin olunur.

Dissertasiyanın III fəslinin üçüncü paraqrafı *"Pedaqoji eksperimentin təşkili"* adlanır. Paraqrafda səriştəli müəllim kadrları hazırlığının təhsilin keyfiyyətinin yüksəldilməsinə təsiri problemləri üzrə pedaqoji ədəbiyyat təhlil olunmuş, məktəb təcrübəsi öyrənilərək ümumiləşdirilmişdir. Bunların nəticələrini nəzərə alaraq pedaqoji eksperiment təşkil edilmişdir.

Müəyyənedici eksperiment ADPU-nun və ADU-nun pedaqoji fakultələrinin IV kurs tələbələri (86 tələbə), 102, 45, 190 və 82 saylı ümumtəhsil məktəblərinin 26 nəfər gənc müəllimi ilə aparılmışdır.

Müəyyənedici eksperiment müəllimlər tərəfindən öz fənləri üzrə mövcud olan proqram, dərslik və əlavə metodik ədəbiyyatdan istifadə etməklə (çalışmalar, metodik tövsiyələr və s.) aparılmışdır.

Öyrədici eksperiment 2019-2020-ci illərdə təşkil edilmiş, ADPU və ADU -nun pedaqoji fakültələrinin IV kurslarından 86 nəfər tələbə cəlb olunmuşdur. 102, 45, 190 və 82 saylı ümumtəhsil məktəblərinin 25 müəllimi, həmçinin ADPU-nun ixtisas fənləri üzrə müəllimləri cəlb edilmişlər. Müəyyənedici eksperimentin

nəticələrinin qiymətləndirilməsi respondentlərin səriştəliliyi üzrə fərdi qaydada həyata keçirilmişdir. Tədris ili ərzində iki dəfə tələbələrin və gənc müəllimlərin səriştəlilik fəaliyyətinin səviyyəsi müəyyənləşdirilmişdir (tələbələrin nəticələri pedaqoji təcrübə zamanı yoxlanılmışdır).

Eksperimentin yoxlayıcı mərhələsində öyrədici metodikanın səmərəliliyi müəyyənləşdi, tələbə və gənc müəllimlərin səriştəlilik keyfiyyətləri yuxarıda göstərilən meyarlar üzrə həyata keçirildi.

Pedaqoji eksperimentin müəyyənedici və öyrədici mərhələlərinin müqayisəli nəticələri öyrədici mərhələdə tələbə və gənc müəllimlərin səriştəlilik fəaliyyətinin inkişaf səviyyəsi bütün göstəricilər üzrə (bilik səviyyəsi, təşkilatçılıq bacarıqları, ünsiyyət qurmaq, valideynlərlə əməkdaşlıq etmək, idrak fəallığı, müstəqil fəaliyyət göstərmək, özünüqiymətləndirmə) daha yüksək olduğu sübut olundu.

Səriştəlilik səviyyəsinə görə tələbə və gənc müəllimləri üç qrupa bölmək olar:

I qrupa ənənəvi üsullarla işləyən, hərdənbir yenilik etməyə çalışan tələbə və müəllimləri aid etmək olar.

II qrupa özünün yeni metodlar sistemini tətbiq edən tələbə və müəllimləri aid etmək olar.

III qrupa isə təlim texnologiyalarını işləyib hazırlayan tələbə və müəllimlər daxil edilmişdir.

Beləliklə, səriştəli müəllimin formalaşdırılması, bir tərəfdən müəllim şəxsiyyətinin şəxsi keyfiyyətlərə malik olması, digər tərəfdən isə yaradıcı fəaliyyət təcrübəsinin əldə edilməsi ilə əlaqədardır ki, bu da təhsilin və peşəkarlığın davamlı olmasını tələb edir.

***Tədqiqat aşağıdakı nəticəyə gəlməyə imkan vermişdir.***

XXI əsrdə ümumi təhsilli insan anlayışı tam yeni meyarlarla ölçülür. Hazırda təhsilli şəxs bu yeni əsrin abu-havasına daha yaxşı bələd olmalı, habelə düşüncə tərzilə tam yeni bilik, həmçinin informasiya-kommunikasiya texnologiyalarını əxz etməli və ömürboyu öyrənməli, informasiyanı biliyə, biliyi isə bacarığa çevirməyi bacarmalıdır. Bu yanaşma eynilə müasir təhsil

paradiqmalarını da özündə ehtiva edir. Bu baxımdan müasir müəllim daha səriştəli olmalı, dövrün yeniliklərini əxz etməli, nəzəri pedaqoji bilikləri, ixtisas biliyini dərindən bilməli və bu nəzəri bilikləri pedaqoji fəaliyyətində tətbiq etməyi bacarmalıdır.

1. Azərbaycan Respublikası özünün müstəqil inkişaf mərhələlərində üstqurumun vacib tərkib hissələrindən biri kimi təhsilin inkişafı və onun fasiləsiz təkmilləşdirilməsinə xüsusi əhəmiyyət vermiş, aparılan məqsədyönlü və ardıcıl dövlət siyasəti nəticəsində təhsil sahəsində islahatların vahid konsepsiyası, aydın strategiyası və konkret dövlət proqramı hazırlanmış və beləliklə ölkəmizdə səriştəli müəllim kadrlarının hazırlığı üçün münbit şərait, əsaslı zəmin yaradılmışdır.

2. Dövlət sənədlərində səriştəli müəllim hazırlığı problemləri kifayət qədər geniş izah edilmişdir. Bu sənədlərdə müəllim hazırlığı ilə bagli irəli sürülən müddəalardan belə nəticəyə gəlmək olur ki, təhsilin keyfiyyəti səriştəli müəllim kadrlarının hazırlığı ilə şərtlənir.

3. Problemlə bağlı mövcud ədəbiyyatda müəllimlik peşəsi, səriştəlilik probleminin araşdırılmasından belə qənaətə gəlmək olar ki, bütövlükdə müəllimlik peşəsi haqqında müəyyən qədər araşdırılsa da, xüsusi olaraq səriştəli müəllim hazırlığı və onun təhsilin keyfiyyətinin yüksəldilməsində rolu haqqında sistemli tədqiqat aparılmamışdır.

4. Mövcud ilk peşə-ixtisas, orta ixtisas və həmçinin ali təhsil üzrə kurikulumlar dövrün tələblərini ödəmir. Səriştəli müəllim hazırlığı üçün yeni kurikulumlar geniş tətbiq edilsə də, bütövlükdə ali təhsil müəssisələrinin ümumi kurikulumları əmək bazarının müasir tələblələrinə tam cavab vermir.

5. Tədqiqatda müəllimlik peşəsində səriştəliliyin pedaqoji əsasları, onun məqsədi, vəzifələri, mahiyyəti, funksiyaları, habelə pedaqoji prinsipləri, tələbləri, məzmunu və formaları təhlil edilmiş, nəticələr çıxarılmış və praktik pedaqoji fəaliyyətdə üstünlükləri eksperiment yolu ilə göstərilmişdir.

6. Tədqiqat prosesində müəyyənləşdirildi ki, bütövlükdə təhsilin keyfiyyətinin yüksəldilməsi, səriştəli müəllim kadrlarının hazırlanması, təhsildə innovativ idarəetmənin bərqərar edilməsi, hər

bir təhsilalana mükəmməl bilik verilməsi və bacarıqların formalaşdırılması təhsil infrastrukturunun müvafiq maddi-texniki bazasının mövcudluğu ilə şərtlənir.

7. Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası təhsilin məzmunu ilə bağlı əsas məqamları, təhsil sisteminin pillələrini - məktəbəqədər, habelə ümumi, ilk peşə-ixtisas, orta ixtisas və ali təhsil kurikulumların təkmilləşdirilməsinin vacib hədəflərini ətraflı əhatə edir. Bu baxımdan səriştəli müəllim kadrlarının yetişdirilməsi pedaqoji təmayüllü ali təhsil müəssisələrinin mühüm vəzifəsi olaraq qalır.

8. Aparılan eksperimentin nəticələri onu deməyə əsas verir ki, səriştəli müəllim kadrlarının hazırlanmasının kompleks proqram əsasında aparılması

a) tələbə və gənc müəllimlərin səriştəliliyinin formalaşdırılmasına müsbət təsir göstərir, onlarda sərbəstlik, müstəqil fikir söyləmək, təşəbbüsləri dəstəkləmək, aktyorluq bacarığı, problem situasiyalar yaratmaq bacarığı yüksəlir.

b) pedaqoji təcrübədə və gənc müəllimlərin dərslərində dəqiqlik, nizam-intizam, ruh yüksəkliyi, diqqət, iradə, özünəəminlik kimi keyfiyyətlərin nəzərəçarpacaq dərəcədə özünü büruzə verməsi müşahidə olunur.

9. Təhsil strategiyasının ikinci istiqaməti təhsil sahəsində işləyənlərin bilik, bacarıq, habelə kompetensiyalarının hər zaman inkişaf etdirilməsini tələb edir. Bu istiqamət ən müasir, innovativ yeni təlim formalarını, habelə üsullarını işində tətbiq edən və təhsilin məzmununun daha səmərəli mənimsənilməsinə malik olan səriştəli müəllimlərin hazırlanmasını xüsusi diqqət mərkəzində saxlayır.

10. Müəllim hazırlayan ali məktəb müəssisələrində səriştəli müəllim kadrları hazırlığında pedaqoji təcrübələrə daha çox yer verilməsi səriştəli müəllim hazırlığının əsas şərtlərindən biridir.

11. Müşahidələr və apardığımız eksperiment göstərdi ki, səriştəli müəllim kadrlarının hazırlığında müasir təlim metodlarının, yeni pedaqoji texnologiyaların, innovasiyaların istifadə edilməsi, təhsilin keyfiyyətini yüksəldilməsində İKT-dən geniş istifadə müasir təlim prosesinin ayrılmaz tərkib hissəsidir.

*Tədqiqatla bağlı aşağıdakı **təklifləri** irəli sürmək olar:*

1. Səriştəli müəllim kadrlarının hazırlığı məsələsinə hələ orta məktəbdən başlanılmalıdır. Bu sahədə orta məktəb şagirdlərinə kifayət qədər məlumat verilməlidir. Müəllimliyə həvəsi olan şagirdləri bu peşəyə istiqamətləndirmək üçün müəllimlər və sinif rəhbərləri ardıcıl iş aparmalıdırlar.

2. Ali pedaqoji təmayüllü məktəblərin kafedraları, xüsusilə pedaqogika və psixologiya kafedralarının ümumtəhsil məktəbləri ilə, müəllim və şagird kollektivi ilə sıx əlaqə saxlaması müsbət nəticələr verə bilər.

3. Müəllim kadrları hazırlayan ali məktəb müəssisələrinə qəbul zamanı məzunların biliyindən başqa qabiliyyəti, davranışı, nitqi, xarici görünüşü və s. nəzərə alınsın. Bu məqsədlə qabiliyyət testlərinin keçirilməsi məqsədəuygundur.

4. Hazırda pedaqoji fakultələrdə nəzəri biliklər təcrübi biliklərdən xeyli çoxdur. Fikrimizcə, pedaqoji təcrübəyə daha çox diqqət yetirilməsi, tələbə və gənc müəllimlərin səriştəliliyinin formalaşdırılmasına müsbət təsir göstərər. Ali təhsil müəssisələrində pedaqoji təcrübəni I kursdan son kursa qədər davam etdirilməsi bu sahədə müsbət nəticələr əldə etməyə imkan verər.

*Tədqiqatın məzmunu, əsas elmi ideyaları və alınan nəticələri iddiaçının **nəşr etdirdiyi** aşağıdakı **əsərlərində** öz əksini tapmışdır:*

1. Səriştəli müəllim kadrlarının hazırlığı təhsilin keyfiyyətinin yüksəldilməsinin amili kimi // "Azərbaycanda təhsil quruculuğunun prioritetləri: Müasir yanaşmalar" mövzusunda beynəlxalq elmi konfransın materialları. –Naxçıvan: -5-6 iyun 2015. -s. 313-314.

2. Təhsilin keyfiyyətinin yüksəldilməsində səriştəli müəllim amili // -Bakı: Dil və ədəbiyyat, -2015. № 2, -s. 264-265.

3. Şəxsiyyətin tərbiyəsində müəllimin səriştəliliyinin rolu // - Bakı: Məktəbəqədər və ibtidai təhsil, -2015. № 4,- s. 54-56.

4. Səriştəli müəllim və peşəsinə verilən tələblər // -Bakı: ADNSU, "Doktorantların və gənc tədqiqatçıların XX Respublika elmi konfransının materialları", -24-25 may 2016, -s. 307-309.

5. Təhsil keyfiyyətinin yüksəldilməsində müəllimin

peşəkarlıq və səriştəlilik keyfiyyətləri // -Bakı: BDU, "Çağdaş dövr və sosial elmlərin aktual problemləri" mövzusunda ümumrespublika elm-praktik konfransın materialları, -19 dekabr 2016. - s. 260-263.

6. Şəxsiyyətin inkişafı və tərbiyəsində müəllim peşəkarlılığı və səriştəliliyi //-Bakı: Kurikulum, -2016. № 4, -s. 31-34.

7. Mənəviyyat və əxlaq tərbiyəsində müəllim peşəkarlığı və müəllim səriştəliliyi // -Bakı: ARTİ-nin Elmi əsərləri, -2017. № 1, -s. 23-25.

8. Competency In Pedagogical Process, Competence And Professionalism // -Moscow: Modern scıence. International scientific journal, -2017. № 01, -s. 70-73.

9. Pedagogical principles in competent teacher`s activities // -Munich, -Germany. "İnternational conference on European science and technology European science and technology" mövzusunda beynəlxalq elmi konfrans. -14-15 mart 2017. -s. 185-192.

10. Heydər Əliyev müəllim səriştəliliyi haqqında //-Bakı: BSU, "Heydər Əliyev və Azərbaycan gəncliyi" mövzusunda respublika elmi konfransının materialları, -2017. - s. 92-92.

11. İngilis dilini öyrənirəm (Məktəbəqədər uşaqlar və kiçik yaşlı məktəblilər üçün) / Metodik vəsait // -Bakı. -2016. - 38 s.

12. Ailə tərbiyəsində məktəblə ailənin birgə fəaliyyəti:/ Metodik vəsait // -Bakı: -2017. -96 s.

13. Pedagogical principles in competent teacher`s activities // European Science and Technology, Materials of the XVI international research and practice conference, - Munich, Germany, - 2017. -p. 185-192.

14. Competency in pedagogical process, competence and professionalism // MODERN SCIENCE International scientific journal, -Moscow, -2017. № 01, -p.70-74.

15. Педагогический такт в отношениях учитель-ученик // Science Review, Open Access Peer-reviewed Journal, -Warsaw, Poland, - 2018. -2(9), February, p. 63-69.

16. Pedagogical competence and pedagogical activity // 1st International youth conference "Perspectives of science and education" -New York, -10 th March 2018. - p. 58-65.

17. Müəllimlik peşəsi və pedaqoji məharət (metosik vəsait) // Yeganə Şirinova, Vəfa Məmmədova-Bakı, -2018. 216 s.
18. The use of new pedagogical technologies for preparing first teachers' staff // European Journalof Humanities and Social Sciences, -Vienna, -2019. № 2, - p. 67-74.

Dissertasiyanın müdafiəsi **"29" dekabr 2021-ci il tarixdə saat 14$^{00}$-da** Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.15. Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68 Az1000,

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Pedaqoji Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat **"27" noyabr 2021-ci il** tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:
Kağızın formatı:
Həcm: 44453
Tiraj: